NİZAMİ GƏNCƏVİ ADINA
MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİ

ISSN 2522-4808 (Print)
ISSN 2702-0034 (Online)

# RİSALƏ

## *Elmi araşdırmalar jurnalı*

# № 1 (28)



Bakı – "Elm və təhsil" – 2025

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi**
**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**Elmi Şurasının 16 may 2025-ci il tarixli (protokol № 5)**
**qərarı ilə çap olunur**

*Baş redaktor:*
**Rafael Hüseynov,**
***akademik***

**Redaksiya heyəti:**
**Kamil Allahyarov, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Xatirə Başirli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Şəfəq Əlibəyli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Aida Qasımova, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Tofiq Məlikli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Rəhilə Qeybullayeva, filologiya üzrə elmlər doktoru, professor, Bakı Slavyan Universiteti, Azərbaycan**
**Mehdi Kazımov, filologiya üzrə elmlər doktoru, professor, Bakı Dövlət Universiteti, Azərbaycan**
**Ali Yavuz Akpınar, professor, doktor, Boğaziçi Universiteti, Türkiyə**
**Hasan Cavadi, professor, doktor, Kaliforniya Universiteti, ABŞ**
**Firuza Melvil, doktor, Kembric Universiteti, Böyük Britaniya**
**Özgen Felek, professor, doktor, Yel Universiteti, ABŞ**
**Campiyero Bellinceri, doktor, Venesiya Ka Foskari Universiteti, İtaliya**
**Mbaye Lo, professor, doktor, Dyuk Universiteti, ABŞ**
**Hendrik Boeşoten, professor, doktor, Maynz Universiteti, Almaniya**
**Nataliya Çalisova, filologiya üzrə elmlər doktoru, professor,**
**Rusiya Dövlət Humanitar Universiteti, Rusiya Federasiyası**
**Gulbahor Aşurova, filologiya üzrə elmlər doktoru, professor,**
**Alişir Navai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti, Özbəkistan**
**Şodimaxammad Sufiyev, filologiya üzrə elmlər doktoru, professor,**
**Tacikistan Respublikası Elmlər Akademiyası, Tacikistan**
**Zemfira Səfərova, akademik, AMEA Memarlıq və İncəsənət İnstitutu, Azərbaycan**
**Cəfər Qiyasi, AMEA-nın müxbir üzvü, Azərbaycan**
**Məryəm Əlizadə, sənətşünaslıq doktoru, professor,**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan**
**Marko Realini, professor, doktor, İtaliya Milli Tədqiqat Şurası, İtaliya**

**Risalə. Elmi araşdırmalar jurnalı. № 1 (28)**
**Bakı, "Elm və təhsil" nəşriyyatı, 2025, 116 s.**

Orta əsrlərdə müsəlman Şərqində yaradılan elmi əsərlər "risalə" adlanırdı. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin klassik ənənəyə riayətlə "Risalə" adlandırılmış, ədəbiyyatşünaslıq və mədəniyyətşünaslıq problemlərinin elmi araşdırmalarından ibarət məqalələr toplusu ildə iki dəfə (yaz və payız) nəşr edilir. Bu elmi araşdırmalar jurnalı məzmunu etibarı ilə filologiya (Azərbaycan və dünya ədəbiyyatı, ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid, folklorşünaslıq, mətnşünaslıq) və sənətşünaslıq (muzeyşünaslıq) sahələri üzrə məqalələri əhatə edir. "Risalə" elmi araşdırmalar jurnalı filologiya və sənətşünaslıq elm sahələri üzrə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi dövri elmi nəşrlər siyahısındadır. 2019-cu ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Mətbu nəşrlərin reyestri"nə daxil edilmişdir (Reyestr № 4216). Eyni zamanda, "Risalə" elmi araşdırmalar jurnalı 05 aprel 2018-ci ildən EBSCO beynəlxalq elektron məlumat bazasına daxil edilmişdir (Müqavilə № 46516).

**© Nizami Gəncəvi adına**
**Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**© 2025**

# Oxuyacaqlarınız



# RİSALƏ
## *Elmi araşdırmalar jurnalı*

*№1.2025(28)*

## Mündəricat

**KLASSİK İRS: TARİXİ VƏ NƏZƏRİ PROBLEMLƏRİ**

*HÜSEYNOV Rafael.*
The concept of the veil in classical art and poetry and the veils of Nasimi
doi.org/10.30546/2702-0034.2025.1.28.007

*ABDULLAYEVA Şəhla.*
Klassik fars-yəhudi ədəbiyyatının banisi Mövlana Şahin Şirazinin həyat və yaradıcılığına qısa baxış
doi.org/10.30546/2702-0034.2025.1.28.010

*DƏMİROVA Cəmilə.*
Ərəb–Siciliya ədəbiyyatında Məhəmməd ət-Tubi izi
doi.org/10.30546/2702-0034.2025.1.28.015

*ƏMİRASLANOVA Aynurə.*
Milli mətbəx nümunəmiz paxlava Nizami yaradıcılığında
doi.org/10.30546/2702-0034.2025.1.28.021

**YENİ VƏ MÜASİR DÖVRDƏ ƏDƏBİ-MƏDƏNİ PROSES**

*BAĞIROVA Könül.*
Şəxsi arxivlərdəki nəsr əsərlərində leksik təhriflər (Cəfər Cabbarlının hekayələri əsasında)
doi.org/10.30546/2702-0034.2025.1.28.025

*BAĞIRZADƏ Nəcibə.*
M.Ə.Rəsulzadənin ədəbiyyatla bağlı araşdırmalarında Azərbaycan davası
doi.org/10.30546/2702-0034.2025.1.28.028

*QƏDİROVA Afət.*
Satirik jurnallar milli mədəniyyətimizin refleksiya faktı kimi
doi.org/10.30546/2702-0034.2025.1.28.032

*MƏMMƏDOVA Aynurə.*
Müznibin qeyri-mətbu şeirləri arxiv materiallarında
doi.org/10.30546/2702-0034.2025.1.28.036

*MİKAYILOV Ülvi.*
İsa Muğannanın bədii nəsrində tale kodlarının təcəssümü
doi.org/10.30546/2702-0034.2025.1.28.042

**TARİXİ-MƏDƏNİ ABİDƏLƏRİN QORUNMASI VƏ TƏDQİQİ. MUZEYŞÜNASLIQ**

*ABİDQIZI Göyərçin.*
Azərbaycan musiqi salnaməsində üç korifey sənətkarın mədəni irsi
doi.org/10.30546/2702-0034.2025.1.28.054

*ALMAZOVA Pakizə.*
Muzey işində Qərb təcrübəsi
doi.org/10.30546/2702-0034.2025.1.28.059

**http://doi.org/10.30546/2702-0034.2025.1.28.032**

**UOT: 821.512.162**

**Afət Əbdülhəsən qızı QƏDİROVA**
**Filologiya üzrə fəlsəfə doktoru**
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
**afetkadirova@gmail.com**

# SATİRİK JURNALLAR MİLLİ MƏDƏNİYYƏTİMİZİN REFLEKSİYA FAKTI KİMİ

**Açar sözlər:** satirik jurnal, ictimai düşüncə, tənqid, cəmiyyət, mədəniyyət
**Keywords:** satirical magazine, social thought, criticism, society, culture
**Ключевые слова:** сатирический журнал, общественное мнение, критика, общество, культура

**Giriş.** B.Spinozanın müdrik sözlərindəki "Bəşəriyyət gülə-gülə öz keçmişindən ayrılır" fikri cəmiyyət həyatında, eləcə də mətbuat səhifələrində rast gəldiyimiz gülüş doğuran mətləblərin idraki cəhətləri ilə xüsusi dəyər qazanır. Bu, qədimlərdən başlayıb bugünümüzə qədər davam edir, cəmiyyət həyatının əxlaqi-mənəvi sağlamlığını təmin edir.

Milli-mədəni keçmişimizin reallığında xüsusi yeri olan satirik mətbuatda xalqımızın həmin dövrdəki munis istəklərini əks etdirən ədəbi nümunələrinin əks etdirilməsi cəmiyyət həyatının müstəsna təsiri ilə mənalanırdı. Bu həm də ona görə dəyərli idi ki, satirik mətbuat gerçək problemlərin təsvirini qorxusuz tərzdə, ədəbi-bədii məzmun rəngarəngliyində göstərməklə ölkə vətəndaşlarının düşüncələrinə təsir edir, onların "ürəyindən xəbər verməklə" öz missiyasına sadiqlik nümayiş etdirməyi bacarırdı.

Həmin dövrün satirik ədəbiyyatı müxtəlif tədqiqatçılar tərəfindən öyrənilsə də, bu barədə cild-cild kitablar yazılsa da, yaşadığımız XXI əsrdə bu mövzu öz aktuallığını qoruyub saxladığı üçün onun çağdaş müstəqillik dövrünün elmi-nəzəri prizmasından təhlili xüsusi əhəmiyyət kəsb edir.

Satirik mətbuatın bu gün tərəfimizdən araşdırılmasında başlıca məqsəd həmin fəaliyyət sahəsinin effektivliyinin gündəlik həyatımızdakı yerini elmi-nəzəri aspektdən dəyərləndirməkdir. Heç şübhəsiz ki, bəhs etdiyimiz araşdırmalarda ötən fəaliyyətin miqyası, səmərəsi, cəmiyyət həyatındakı yeri, yaradıcılıq özəllikləri, eləcə də inkişaf perspektivləri kimi amillərin öyrənilməsi nəzərdə tutulur.

Hər bir xalqın təşəkkül və inkişaf tarixində, onun ictimai şüurunun formalaşmasında, mədəni və milli özünüdərk prosesində mətbuatın həlledici rolu şübhəsizdir. Bəllidir ki, ölkəmizin ictimai-mədəni tarixində möhtəşəm tarixi missiyanı öz üzərinə götürən, milli mətbuat tarixinin ilk parlaq mədəniyyət faktını təsdiqləyən "Əkinçi" (1873-1875) qəzetinin təsisçisi və naşiri Həsən bəy Zərdabi olmuşdur. Milli mətbuatımızın təməli olan "Əkinçi" Azərbaycanda milli ruhun oyanması, ictimai fikrin təkmilləşməsi prosesində özündən sonra neçə-neçə mətbu orqanın yaranmasına vəsilə olmuşdur ki, bunların sırasında öz yaranışı ilə, sözün tam mənasında, ədəbi məktəb olaraq ictimai-mədəni hadisə faktına çevrilən ilk satirik jurnal "Molla Nəsrəddin"in adı xüsusi qeyd edilir.

Amma buradaca onu da yada salaq ki, həmin dövrün mətbuatı ilə bağlı araşdırmalara nəzər saldıqda publisist Əliqulu Səfərovun hələ “Molla Nəsrəddin” jurnalı nəşrə başlamazdan 14 il əvvəl, yəni 1892-ci ildə qeyri-leqal yolla “Şəbnamə” adlı satirik qəzet-vərəqə nəşr etdirdiyi faktı ilə qarşılaşırıq. Primitiv üsulla çap olunan (jelatie üsulu) bu qəzet-vərəqələri geniş yaymaq mümkün olmadığından o, 6 il sonra, 1898-ci ildə “Ehtiyac” və “İqbal” qəzetlərini, 1906-cı ildə isə satirik “Azərbaycan” jurnalını nəşr etdirir. Onun, həmçinin, Mirzə Cəlilin naşiri olduğu “Molla Nəsrəddin” jurnalında da satirik felyetonları çap olunur. Şübhəsiz ki, Cəlil Məmmədquluzadə həmin jurnalla tanış idi. Heç təsadüfi deyil ki, AMEA-nın müxbir üzvü Əziz Mirəhmədov C.Məmmədquluzadənin yaradıcılığı ilə “Şəbnamə” arasında müəyyən yaxınlıq olduğunu qeyd edir. Bu barədə çox az faktın əldə olunduğunu vurğulayan alim jurnalın ideya istiqaməti barədə məlumat almaq üçün M.Sidqinin dostu Q.Şərifzadəyə yazdığı məktubunu əsas gətirir. Belə ki, məktub müəllifinin yazdığına görə, “başqa dövlətlərin “ruznameyi-paytaxti” məqamında olan “Şəbnamə”nin mənfəəti gah millət üçün, gah məmləkətdən ötrü və gah dövlət üçün ruznamədən artıqdır. “Şəbnameyi-bəsirət”ə məktubda gəlişigözəl geniş yer verilmir; o, istər məzmunu, istərsə də Sidqi ilə “Molla Nəsrəddin” redaktoru arasındakı böyük mənəvi yaxınlığı göstərmək baxımından çox qiymətlidir; elə bil o, ilk Azərbaycan satira jurnalının ilk müjdəsidir” [7, s.81-82].

Vaxtı ilə Tiflisdə çap olunmuş “Kukureku” jurnalının “Molla Nəsrəddin”in meydana gəlməsinə təkan verməsi fikri də ara-sıra cəmiyyətin elmi-ictimai fikrinin nəzərinə çatdırılmış və bu barədə ilk mənbə olaraq Cəlil Məmmədquluzadənin xatirələrinə istinad olunmuşdur: “Min doqquz yüz altıncı ilin radələrində, yadımdadır, hər bir kəs hər nə kefidir, yazmağa və nəşr eləməyə başladı. Və yadımdadır ki, qələm azadlığı o yerə çatdı ki, bir gün bazarda qəzet satan uşaqları “Kukureku” çığıra-çığıra şəkilli bir jurnalı satan gördüm. Bu jurnal rus dilində çap olunurdu. “Adı Kukureku” idi. Və jurnalın haman gün rast gəldiyim bir nömrəsində bir xoruz şəkli çəkilmişdi. Xoruzun başı əsrin padşahı Nikolayın başı idi. Boğazı və bədəni xoruz idi. Şəklin təfsilatı indi yadımda deyil. Ancaq haman jurnal nömrəsi mənim üçün xeyli bir qiymətli yadigardır. ... Bu qədər var ki, “Kukureku” jurnalında xoruz şəklində çəkilən Nikolay padşahla mənim işim yox idi. Və bu karikatura ilə artıq maraqlandığım ondan ötrü idi ki, dəxi, qələmləri azad görürdüm. Və belə gülünc bir zamanda, belə quliyabanı bir insanların tarixini yazmaq üçün, əhval və ətvarını təsvir etmək üçün məgər “Molla Nəsrəddin”in yaranmağı təbii deyil?

“Molla Nəsrəddin”i təbiət özü yaratdı, zəmanə özü yaratdı” [8, s.97; 101].

Mirzə Cəlilin yaxın məsləkdaşı, “Molla Nəsrəddin”in ərsəyə gəlməsində mühüm rolu olan Ömər Faiq Nemanzadənin də jurnalın yaranması ilə bağlı düşüncələri maraq doğurur: “Geniş kütləni mübarizəyə hazırlamaq üçün yeni vasitələrə müraciət ehtiyacı göründü ki, bunlar da yeni qəzet və jurnallar idi. Tiflisdəki qonşularımız bu yeni ehtiyacı tez də başa düşüb, yeni liberal qəzetlər, “Kukureku” kimi sol jurnallar çıxarmağa başladılar. Yanıbaşımızdakı bu inqilab hərəkətləri, bu iqtisadi böhranlar biz türk əməkçilərinə də təsirsiz qala bilməzdi... Bizi qonşulardan daha çox əzən çarizm divi ilə mübarizə üçün bizim də yeni vasitələrə yapışmağımız bir ehtiyac olaraq qarşımıza çıxırdı.

Mollanın gələcəyi üçün çox böyük əhəmiyyəti olan bu psixoloji və ictimai bir məsələni öz aralarında həll edən o iki yoldaş çıxaracaqları jurnalın yazılarını qabaqcadan təyin edib onun mütləq şəkilli olması qərarına gəldilər. Bundan sonra jurnalın

adı üzərində düşündülər. Çünki adın özü də bir reklam, bir dəlildir. Oxucu haraya gedəcəyini, nə ala biləcəyini qabaqcadan bilmək marağını bəsləyəndir. Buna görə də bir çox adlar sadalanıb tullandıqdan sonra "Molla Nəsrəddin" üzərində dayanıldı.

"Molla Nəsrəddin" deyəndə oxucu düşünə bilər ki, onda gülməli hekayələr, əyləncəli söhbətlər, ibrətli sözlər var. Hələ, üstəlik olaraq, bir də gülməli şəkillər" [12, s.159-162].

Publisist, salnaməçi Qulam Məmmədli isə "Molla Nəsrəddin" və "Kukureku" adlı məqaləsində sözügedən jurnalın nəşrində "Kukureku" jurnalının təsirini qəti şəkildə inkar edir. Müəllif fikrinin isbatı üçün onu əsas gətirir ki, "Kukureku" jurnalının ilk nömrəsi 1906-cı ilin fevral ayında çapdan çıxmışdır. "Halbuki bu hadisədən çox qabaq Mirzə Cəlilin "Molla Nəsrəddin" adlı satirik-yumorist jurnal çıxaracağı barədə Qafqazın rus və Azərbaycan mətbuatı dəfələrlə xəbər vermişdi... Nəhayət, iki əsaslı sənəd də M.Cəlilin hələ "Kukureku" yox ikən "Molla Nəsrəddin"i çıxarmaq fikrinə düşdüyünü sübut edir. Bunlardan birisi onun 1906-cı il fevral ayının 21-də Tiflis qubernatoruna ərizə ilə müraciət edib jurnal çıxarmağa icazə istəməsi, digəri isə Tiflis senatorunun həmin il fevralın 25-də müəllifi Molla Nəsrəddin olan (Mirzə Cəlil Məmmədquluzadə yox) "Usta Zeynal" hekayəsinin çapına icazə verməsidir" [10]. Salnaməçi Q.Məmmədlinin fikrinin təsdiqi üçün irəli sürdüyü əsaslı faktlarla razılaşmamaq mümkün deyil.

Xüsusilə fəaliyyətə basladığı ilk illər dəfələrlə bağlanmaq təhlükəsi ilə üz-üzə qalan jurnalın cəmiyyətin ictimai-ədəbi düşüncədə yeri o qədər əhəmiyyətli idi ki, bu mətbu orqanın yaradıcıları gələcəkdə sözügedən jurnalın təməli üzərində silsilə jurnalların yaranacağına əmin olacaqlarını dilə gətirirdilər: "Biçarələr elə güman edirlər ki, "Molla Nəsrəddin" bağlanmaqla onların eyibləri örtüləcək. Dəxi bilmirlər ki, aləm sürətlə dəyişilməkdədir. Bu az maarifimizlə də olsa, içimizdə bir çox Molla Nəsrəddinlər var. Bu gün Molla Nəsrəddin batar, sabah Molla Xeyrəddin çıxar... Dəxi bir para cahillərin, nadanların xatiri üçün həqiqət fəda edilməyəcək. Bu gün "Molla Nəsrəddin" bağlandı, amma "Molla Nəsrəddin"i meydana gətirəcək fikirlər bağlanmayacaq.

"Molla Nəsrəddin" müasiri və mühərrirləri çoxdan söyülməyi, bağlanılmağı, nadanların tənə və töhmətini və xurafatpərəstlərin küfrünü gözünə almışdır.

"Molla Nəsrəddin"in gedəcəyi yol birdir ki, o da üstümüzdəki ləkələrə, tərəqqiyə mane olan öz cahilanə adətlərimizə acı-acı gülüb, millətin səadətinə çalışmaqdır. Binaəleyh, heç bir təhdid, donosbazlıq, bağlanmaqlıq "Molla Nəsrəddin"in bu əzm və məsləkinə mane olmayacaqdır" [4, s.223].

Beləliklə, XX əsrin əvvəllərində nəşrə başlayan "Molla Nəsrəddin" jurnalının ictimai fikrə təsir enerjisi qısa zaman içərisində artmış və o, təkcə Azərbaycanda deyil, Orta Asiya, İran və Türkiyədən başlamış Hindistana qədər çoxsaylı ölkə xalqlarının ədəbi düşüncəsini, sosial-psixoloji ovqatının formalaşmasını təmin etmişdir.

Mətbuat tarixində yer alan, müstəsna əhəmiyyət kəsb edən bu fakt sonralar "Molla Nəsrəddin" kimi ədəbi məktəb örnəyi olan neçə-neçə satirik jurnalın yaranmasını işarələyir.

Ötən əsrin ictimai-mədəni mühitində diqqətçəkən milli oyanış prosesi kontekstində dəyərləndirməklə belə bir fikri də qeyd etməliyik ki, məhz "Molla Nəsrəddin" jurnalının təsiri altında həmin dövrdə Azərbaycanda "Zənbur" (1909-1910), "Mirat" (1910), "Arı" (1910-1911), "Kəlniyyət" (1912-1913), "Lək-lək" (1914), "Tuti" (1914-1917), "Məzəli" (1914-1915), "Babayi-Əmir" (1915-1916),

"Tartan-Partan" (1918), "Şeypur" (1909-1910; 1918-1919), "Zənbur" (1919), "Məşəl" (1919-1920) kimi ana dilində nəşr olunan satirik jurnallarla yanaşı, Bakıda rus dilində "Cigit" (1907-1918), "Vay-vay" (1908), "Biç" (1909-1915), "Adskaya poçta" (1909-1910), "Bakinskiye strelı" (1910), "Baraban" (1912-1913) kimi satirik jurnallar da dərc olunurdu.

Onu da qeyd edək ki, "Zənbur" jurnalı XX əsrin əvvəllərində eyni adla iki dəfə nəşr edilmişdir. Onun birinci nəşri 1909-1910-cu illərə, ikinci nəşri isə Azərbaycan Xalq Cümhuriyyəti dövrünə, yəni 1918-1919-cu illərə təsadüf edir.

İlk naşiri həkim və yazıçı Əbdülxaliq Axundov olan jurnalın redaktoru əvvəlcə Rzabəy Səlimxanov, sonra Əzim Əzimzadə və nəhayət, Murtuzbəy Palavandov olan jurnalla Mirzə Ələkbər Sabir, Əli Nəzmi, Abbas Səhhət, Əliabbas Müznib kimi dövrün mütərəqqi fikirli ədibləri əməkdaşlıq etmişlər.

"Molla Nəsrəddin" jurnalında istedadlı rəssam kimi fərdi məharətini təsdiqləyən Əzim Əzimzadə "Zənbur"da redaktor kimi fəaliyyət göstərdiyi illərdə publisistik fəaliyyəti ilə diqqəti cəlb edir. Sonralar o, "Kəlniyyət", "Tuti", "Babayi-Əmir", Bakıda rus dilində nəşr edilən "Biç", "Baraban" və başqa satirik mətbu orqanlarda "Dəmdə-məki", "Xoruz", "Avara rəssam", "Məəttəl qalan" və s. imzalarla satirik yazılar dərc etdirmişdir.

Bəlli mənbələrdə qeyd edildiyinə görə, "Zənbur" "Molla Nəsrəddin"i özünün müəllimi sayır, rəsmləri və ədəbi materiallarında onunla eyni düşüncə mövqeyində olduğunu oxucuya çatdırmaq istəyirdi... "Zənbur" müəllifləri çox vaxt öz yazılarında "Molla Nəsrəddin əmi"yə müraciət edir, ondan məsləhət istəyirdilər" [1, s.18-19]. Eynilə həmin mövqeyi o zamanlar Azərbaycanda nəşr olunan bütün satirik jurnallara aid etmək olar.

"Zənbur"un fəaliyyəti kifayət qədər nüfuzlu və miqyaslı cəhətləri ilə cəmiyyət həyatında maraqlı yer tuturdu. Belə ki, işıq üzü görən 70 nömrəsində 200-dən artıq şeir və felyeton dərc edilmiş jurnalın dil və üslub keyfiyyətləri istər forma, istərsə də məzmun cəhətdən oxucuların milli qavrayış tələblərinə tamamilə uyğun idi. Əsas etibarı ilə əruz vəznində dərc edilən şeirlər oynaq və səlis bir dildə yazıldığı və Azərbaycan dilinin ifadə tərzinin xüsusiyyətlərini öz bədii ifadəsində çatdıra bildiyi üçün asan qavranılırdı.

Jurnalın səhifələrində satirik şeirlərlə yanaşı, eyni zamanda, nəsrlə yazılmış felyetonlara, dialoq şəklində qurulmuş ədəbi parçalara, həmçinin, müxtəlif məzmunlu bəhri-təvillərə də yer verilirdi.

1918-ci ilin aprel-noyabr aylarında uzunillik fasilədən sonra yenidən nəşr olunan "Zənbur"un təsisçisi Türk Nəşriyyat Cəmiyyəti, naşiri isə növbəti dəfə yenə Mirzə Əbdülxaliq Axundov, rəssamı Əzim Əzimzadə idi. Jurnalda Əliabbas Müznib, Əli Nəzmi, Səməd Mənsur, Hacı Qasım Səyyah kimi müəlliflərin satirik yaradıcılığına geniş yer verilirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin siyasi-ictimai islahatları dövründə nəşr olunan "Şeypur"un ilk sayı 5 oktyabr 1918-ci ildə, son sayı isə 18 yanvar 1919-cu ildə işıq üzü görmüşdür. Həftədə bir dəfə səkkiz səhifə həcmində çapdan çıxan jurnalın redaktoru Məhəmmədtağı Sidqinin oğlu publisist Məhəmmədəli Sidqi, naşiri isə Səməd Mənsur idi. Jurnalın səhifələrində Səməd Mənsurun, Salman Mümtazın, Cəfər Cabbarlının, Əliabbas Müznibin, Əmin Abidin, Məhəmmədəli Nasirin və b. müstəqillik ovqatından qaynaqlanan azadlıq ruhlu yaradıcılıq nümunələri oxuculara çatdırılırdı.

Fəaliyyəti boyu cəmi 14 nömrəsi işıq üzü görən “Şeypur” dövrün sadə olmayan mühitində, mövcud cəmiyyətin ovqatında müəyyən təəssürat oyatmağı, yaddaşlarda iz buraxmağı bacarmışdı.

Yeri gəlmişkən onu da qeyd etmək olar ki, redaktoru Əliabbas Müznib, naşiri onun qardaşı Əbülfəz Mütəlliboğlu olan, 1915-ci ilin 21 aprelindən 1916-cı ilin 17 oktyabrınadək Bakıda nəşr edilən “Babayi-Əmir” jurnalının da nəşrinə “Molla Nəsrəddin”in həlledici təsiri olmuşdur. 26-cı nömrəsinədək rəngsiz çap olunan “Babayi-Əmir” jurnalının sonrakı 26-31-ci nömrələri üçün Əzim Əzimzadə rəngli rəsmlər çəkmiş, əməkdaşları arasında Məmməd Səid Ordubadi, Əli Nəzmi, Seyid Hüseyn, Əliağa Vahid, Bayraməli Abbaszadə kimi dövrün qabaqcıl düşüncəli qələm sahiblərinin yer aldığı jurnalın səhifələrində o vaxtlar cəmiyyəti narahat edən mühüm məsələlərin tənqid hədəfi daha çox satirik şeir yaradıcılığında öz bədii ifadəsini tapmaqla həmin ədəbi formanın kəmiyyət göstəricisi ilə bərabər keyfiyyət səviyyəsinə ciddi təsir göstərib, mövzu, janr, dil-üslub xüsusiyyətlərinin zənginləşməsi ilə yanaşı, onların bədii ifadə imkanlarının da artmasını labüdləşdirirdi.

İrəvanda türk dilində nəşr edilən ilk mətbu orqan olan, 1914-cü il fevral ayının 22-dən həmin ilin 30 iyununadək nəşr olunmuş, cəmi 12 sayı işıq üzü görmüş “Lək-lək” “Molla Nəsrəddin” ədəbi məktəbi ənənələrini, mətbu varisliyini uğurla davam etdirirdi. Bu zaman naşir və redaktoru Mirməhəmməd Mirfətullayev və Cabbar Əsgərzadə olan jurnalda dövrün ictimai-siyasi, ədəbi və mədəni hadisələri əhatəli şəkildə verilirdi.

Yuxarıda qeyd etdiyimiz satirik mətbu orqanlardan hər biri ozamankı milli-mədəni gerçəkliyin yetişdirdiyi, dövrün və cəmiyyətin qəbul etməsi ilə müstəqil ədəbi məktəb kimi qeydiyyatdan keçən “Molla Nəsrəddin” satirik şeir məktəbindən təsirlənmiş, beləliklə, ölkəmizdə satirik ədəbi məktəbin yaranmasına vəsilə olmuşdur.

Şübhə yoxdur ki, məhz “Molla Nəsrəddin”in sayəsində Əzim Əzimzadənin simasında və yaradıcılıq nümunəsində ayrıca millli karikatura məktəbinin yaranması mümkün olmuşdur. Bütün bunlar nəinki “Molla Nəsrəddin” ədəbi məktəbinin miqyaslı yaradıcılıq potensialını, eyni zamanda, həmin proseslərdə onun regenerasiya möcüzəsini nümayiş etdirir.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan və ölkəmiz SSRİ-nin tərkibinə qoşulduqdan sonrakı dövrdə, yeni siyasi-ictimai, mədəni gerçəklikdə, konyunktur inzibati tələblərin təzyiqi, heç şübhəsiz ki, bütövlükdə ədəbiyyatın və incəsənətin fəaliyyətinə təsir etdiyi kimi, satirik mətbuatın da məzmun və ifadə istiqamətinə öz təsirini göstərdi.

Həmin dövrdə SSRİ-də ədəbiyyat, eləcə də mətbuat reqlamentləşdirilmiş rejimdə fəaliyyət göstərsə də, bəzən onun “cızıqdan çıxan” məqamları da olurdu. Bu illərdə ayrı-ayrı müttəfiq respublikalarda müxtəlif adlarda (“Krokodil” (Rusiya), “Xorpuştak” (Tacikistan), “Kiperuş” (Moldova), “Çalkan” (Qırğızıstan), “Ara” (Qazaxıstan), “Rikker” (Estoniya), “Vojik” (Belarus), “Müştüm” (Özbəkistan) və s.) çoxsaylı satirik mətbu orqan dərc edilirdi.

1931-ci ildə “Molla Nəsrəddin”in son nömrəsinin çapdan çıxmasından 20 il sonra, obrazlı desək, onun közərən ocağı üzərində Bakıda yeni bir satirik jurnal ərsəyə gəldi. Yəni 1952-ci il iyul ayının 15-də Bakıda Əvəz Sadığın redaktorluğu ilə “Kirpi” adlı satirik jurnal nəşr olunmağa başladı. Jurnalın redaktoru “Kirpi”nin ilk nömrəsində “Molla Nəsrəddinlə Kirpinin görüşü”nü təsvir edir və bu dialoqda jurnalın məramını belə açıqlayır: “Mən bu fikirdəyəm ki, vəzifəsinə yaxşı baxmayan nazir də, dövlət

planlarını yerinə yetirməyib gözdən pərdə asan müdir də, adamları süründürməyə salan bürokrat da, fabrik-zavodda zay mal buraxan və yaxud tarlada alaq otlarını təmizləməyən briqadir də, dövlət malına, xalq malına əyri baxan oğru da, hər cür daş-başçı da, naxoşlara pis baxan həkim də, böyük maaş alıb, gənclərə bilik verməyən "professorlar" da, təmizliyə fikir verməyən süpürgəçi də Kirpinin tikanlarını dadmalıdır" [6].

"Kirpi" "Molla Nəsrəddin"in yaxşı ənənələrini davam etdirəcəkdir" vədini verən jurnal nəşr olunduğu illər ərzində vədinə sadiq qalmağa çalışmış, sovet hakimiyyəti dövründə nüfuz qazanan ən məşhur və gərəkli mətbu orqan olmuşdur.

Ötən əsrin 90-cı illərinə kimi bu jurnalın hər sayı ədəbi-ictimai mühitdə böyük maraqla qarşılansa da, sonrakı illərdə satirik jurnalların sayının artmasına görə, yaxud başqa səbəbdən "Kirpi"nin ictimai mövqeyi əsaslı şəkildə zəifləməyə başladı.

"Kirpi"nin fəaliyyəti boyu cəmiyyət həyatında xalqımızın ictimai-mədəni səviyyəsinin yüksəlməsində, sosial aktivliyinin artmasında görkəmli ziyalılarımızın əməyi xüsusi qeyd edilməlidir. Belə ki, uzun illər ərzində Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Süleyman Rəhimov, Əli Vəliyev, Mir Cəlal, Sabit Rəhman, Əvəz Sadıq, Seyfəddin Dağlı, Salam Qədirzadə kimi görkəmli şair və yazıçılar, İsmayıl Axundov, Həsən Haqverdiyev, Ziya Kərimbəyli, Nəcəfqulu, Hüseyn Əliyev, Adil Elçin, Hafiz Nəsiroğlu kimi məşhur fırça ustaları sayəsində "Kirpi" öz ətrafında məhsuldar ədəbi-bədii yaradıcılıq mühiti yarada bilmiş, beləliklə də öz tarixi varislik missiyasını ləyaqətlə yerinə yetirib, milli-mənəvi dəyərlərin toxunulmazlığına və saflığına çalışmışdır.

Əslinə qalsa, xalq gülüş mədəniyyətinin ilk nidaları Mirzə Fətəli Axundzadənin ölməz komediyalarının mətn semantikasında özünü bəyan etmişdi. Milli folklor nümunələrini, psixomental özünəməxsusluğu yaşadan ədəbi əsərlər Nəcəf bəy Vəzirovun, Sultan Məcid Qənizadənin, Üzeyir Hacıbəylinin və b. əsərlərində cəmiyyət həyatına nüfuz etməklə milli diriliyimizi ifadə etməkdə idi.

Həmin qaynaqdan təşəkkül tapıb formalaşan Azərbaycan satirik mətbuatı, söz yox ki, həmin tükənməz mirasın kökündən boy verib qol-budaq atmışdı.

Ötən illər ərzində ölkəmizdə adları müxtəlif olsa da, fəaliyyət diapazonu, ünvanı və hədəfi təxminən eyni olan satirik jurnallar yarandı və onlar öz öhdələrinə düşən tarixi-ictimai vəzifəni, milli-mənəvi yükü vicdanla, böyük ədəbi hünərlə daşımağı bacardılar.

Əlaqə
E-mail: **afetkadirova@gmail.com**

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

1. Ağayev İ. Satirik "Zənbur" jurnalı. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1969, 123 s.
2. Ağayev İ. Ədəbiyyat, mətbuat və publisistika problemləri. Bakı: "Elm" nəşriyyatı, 2008, 504 s.
3. Aşırlı A. Azərbaycan mətbuat tarixi (1875-1920). Bakı: "Elm və təhsil", 2009, 296s.
4. Azərbaycan mətbuat tarixi antologiyası. 2 cilddə. I cild. Bakı: "Elm və təhsil", 2010, 440 s.
5. Həsənzadə T. İran və Cənubi Azərbaycanda satirik mətbuatın yaranmasında "Molla Nəsrəddin" jurnalının rolu. "Respublika" qəzeti, 12 iyul 2005
6. "Kirpi" jurnalı, №1, 15 iyul 1952, "Kommunist" qəzeti nəşriyyatı, s.2

7. Mirəhmədov Ə. Azərbaycan “Molla Nəsrəddin”i. Bakı: Yazıçı, 1980, 429 s.
8. Məmmədquluzadə C. Xatiratım. Bakı: “Xan” nəşriyyatı, 2014, 148 s.
9. Məmmədli Q. Ömür dəftərindən səhifələr. Bakı: Təhsil, 2016, 184 s.
10. Məmmədli Q. “Molla Nəsrəddin” və “Kukureku”. “Ədəbiyyat və incəsənət” qəzeti, 1964, 15 avqust
11. Musayeva İ. Ömər Faiq Nemanzadə. Bakı: “Tuna” QSC, 2023, 256 s.
12. Nemanzadə Ö.F. “Xatirələrim”. Bakı: “Xan” nəşriyyatı, 2014, 166 s.

**Məqaləyə istinad:** Afət Qədirova. Satirik jurnallar milli mədəniyyətimizin refleksiya faktı kimi. Nömrə 1 (28), 2025. səh.66-73.
DOİ.10.30546/2702-0034.2025.1.28.032

***Afet GADIROVA***

## SATIRICAL MAGAZINES AS A FACT OF REFLECTION OF OUR NATIONAL CULTURE

### *S u m m a r y*

The presented article covers the period of the creation and formation of the periodical press in Azerbaijan, mainly satirical magazines. The article reviews and evaluates the work of a number of satirical press organs that influenced the socio-cultural mood of society, the harmony of activity in different historical periods of our country, and directed the attention of citizens to existing socio-moral problems. At the same time, in its considerations regarding the famous "Kirpi", which had a fundamental impact on social and literary thought in Azerbaijan in the second half of the last century, the activity of this satirical magazine, as the successor of the satirical press bodies that preceded it, in developing that invaluable heritage is discussed.

As the scientific and theoretical significance of the article we are discussing, it can also be noted that here the fact of marking the nature of the socio-cultural mood manifested in the text semantics of individual articles containing their subject and content indicators under the influence of the dialectical development dynamics of the social life of satirical magazines is touched upon. At this time, the author of the article, referring to historical documents, as well as various facts that left their mark on the socio-cultural life of the period, draws attention to the fact that the emergence of satirical magazines stems from the requirements of the social order, and is due to the need of society for the press.

The article assesses the importance of satirical journals in historical and chronological order not only for specific years, but also for the cultural life of the period as a whole, as well as large and small problems arising from political and social contradictions in the scientific-theoretical plane by expressing their sufficiently capacious scientific conclusions on its social harmony. This undoubtedly satisfies the richness of the content of the article in question.

*Афет ГАДИРОВА*

## САТИРИЧЕСКИЕ ЖУРНАЛЫ КАК ФАКТ ОТРАЖЕНИЯ НАЦИОНАЛЬНОЙ КУЛЬТУРЫ

***Р е з ю м е***

Представленная статья охватывает период создания и становления периодической печати в Азербайджане, преимущественно сатирических журналов. В статье рассматривается и оценивается работа ряда сатирических органов печати, которые в отдельные исторические периоды нашей страны поддерживали социальный и культурный тонус общества, привлекали внимание граждан к актуальным социально-нравственным проблемам. В то же время в рассуждениях о знаменитом “Кирпи”, оказавшем существенное влияние на общественно-литературную мысль в Азербайджане во второй половине прошлого века, говорится о деятельности этого сатирического журнала в направлении развития этого бесценного наследия как преемника его предшественников.

Наряду с научно-теоретическим значением статьи, о которой мы говорим, можно отметить тот факт, что сатирические журналы под влиянием динамики диалектического развития общественной жизни обращаются к факту обозначения характера социально-культурного питания, проявляющегося в текстовой семантике отдельных сочинений, содержащих их предметные и содержательные показатели. При этом автор статьи обращается к историческим документам, а также к различным фактам, оставившим след в общественно-культурной жизни того времени, акцентируя внимание на том, что выход в свет сатирических журналов обусловлен требованиями общественного порядка и потребностью общества в прессе.

В статье рассматривается значение сатирических журналов в научно-теоретической плоскости, затрагиваются большие и малые проблемы, возникающие в результате политико-социальных противоречий, возникающих в историко-хронологической последовательности, не только для конкретного периода времени, но и в культурной жизни эпохи в целом, о научных выводах, достаточно емких для ее социальной гармонии. Это, несомненно, обеспечивает богатство содержания рассматриваемой статьи.